AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

DÖVLƏT PROQRAMI İDARƏETMƏ QRUPU

# DÖVLƏT PROQRAMLARINA AİD **AYLIQ XƏBƏR İCMALI**

05 may - 05 iyun

**dp.edu.az**

# XƏBƏR İCMALI

05 may - 05 iyun

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
Dövlət Proqramı İdarəetmə Qrupu

## Elm və təhsil naziri Londonda Dövlət Proqramı təqaüdçüləri ilə görüşüb



Böyük Britaniyaya səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Londonda Dövlət Proqramı çərçivəsində bu ölkədə təhsil alan azərbaycanlı tələbələrlə görüş keçirib.

## Dövlət Proqramı iştirakçısı ABŞ-nin nüfuzlu akademik fəxri cəmiyyəti olan "Phi Kappa Phi"yə üzv seçilib



Dövlət Proqramı iştirakçısı Kənan Abdiyev ABŞ-nin ən nüfuzlu akademik fəxri cəmiyyətlərindən biri olan **"Phi Kappa Phi"**yə üzv seçilib. Bu təşkilata üzvlük yalnız dəvət əsasında mümkündür və yüksək akademik göstəricilərə malik şəxslərə təqdim olunur.

# XƏBƏR İCMALI

05 may - 05 iyun

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
DÖVLƏT PROQRAMI İDARƏETMƏ QRUPU



## İkili Diplom Proqramları çərçivəsində Rəhbər Komitə üzvlərinin ABŞ-də növbəti görüşü baş tutub

ADA-CVU ikili diplom proqramları çərçivəsində Rəhbər Komitə üzvlərinin növbəti görüşü Corc Vaşinqton Universitetində baş tutub. Səfər nümayəndə heyətinin "GWU"da keçirilən Məzun günündə iştirakı ilə yekunlaşıb.

## Dövlət Proqramı iştirakçısı Dünya Təhsil Forumunda iştirak edib




Dövlət Proqramı iştirakçısı Şəbnəm Tağıyeva Oksford Universitetinin Blavatnik Dövlət İdarəçiliyi Məktəbi tərəfindən seçilmiş 10 nəfər tələbədən ibarət heyətin tərkibində Londonda keçirilən “Dünya Təhsil Forumu 2025”də iştirak edib.

## Emin Əmrullayev ADPU–CVU ikili diplom proqramının IV məzun buraxılışında iştirak edib





Mayın 29-da Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ilə ABŞ-nin Corc Vaşinqton Universitetinin (CVU) birgə ikili diplom magistr proqramının dördüncü məzun buraxılışı keçirilib.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, CVU-nun Təhsil və İnsan İnkişafı Məktəbinin dekanı Maykl Foyer və məktəbin professoru Kolin Qrin, habelə Elm və Təhsil Nazirliyi, Dövlət Neft Fondunun məsul əməkdaşları, ADPU, Corc Vaşinqton Universitetinin nümayəndələri, proqramın məzunları iştirak ediblər.

## BMU-İNHA İDP tələbəsinə BMU rektoru tərəfindən fəxri fərman təqdim olunub



Bakı Mühəndislik Universitetinin (BMU) rektoru Yaqub Piriyev ali təhsil ocağının Bədii yaradıcılıq bölməsi özfəaliyyət kollektivlərinin fəal üzvləri olan tələbələrlə görüşüb. Görüşdə BMU-İNHA İDP-nin Elektronika mühəndisliyi ixtisasının 3-cü kurs tələbəsi Günay Nuruyeva fəxri fərmanla təltif olunub.

# XƏBƏR İCMALI

**05 may - 05 iyun**

## Milli təamlarımız uzaq Avstraliyada **– Dövlət Proqramı iştirakçılarının təqdimatında**






Sidney Universitetində "Taste of harmony" adlı yemək sərgisi təşkil edilib və sərgidə Azərbaycan uğurla təmsil olunub. Sərginin məqsədi isə müxtəlif ölkələrdən olan tələbələrin öz milli mətbəxlərini nümayiş etdirməsi və doğma ölkələrinin tanıdılması idi. Sərgidə Azərbaycanı Dövlət Proqramı iştirakçıları Aysu İlyasova, Zəka Abbasov və Kənan Rəhimli təmsil ediblər.

## Dövlət Proqramının iştirakçısı Ohayo Dövlət Universitetində təqdimatla çıxış edib

Dövlət Proqramı iştirakçısı, ABŞ-nin nüfuzlu Yale Hüquq Məktəbinin magistr tələbəsi Orxan Abdulkərimli Ohayo Dövlət Universitetində keçirilən "IV İllik Kibertəhlükəsizlik Hüququ və Siyasəti üzrə Tədqiqatçılar Konfransı" tədbirində "Açıq mənbə proqram təminatlarının kommersiya statusu" mövzusunda təqdimat ilə çıxış edib.



AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
DÖVLƏT PROQRAMI İDARƏETMƏ QRUPU


## Dövlət Proqramı məzunu “Qlobal Layihə İdarəetmə Forumu”nda çıxış edib

Dövlət Proqramı məzunu Firuzə Nəsibzadə, 17-19 may tarixlərində keçirilən “Qlobal Layihə İdarəetmə Forumu”nda “Qlobal Rəqəmsal Layihə İdarəetmə Cəmiyyəti Qurulması” mövzusu ilə spiker kimi çıxış edib.



## Koreyada BMU-İNHA İDP üzrə Rəhbər Komitə üzvlərinin növbəti iclası keçirilib






Bakı Mühəndislik Universiteti ilə İNHA Universiteti arasında icra olunan beynəlxalq ikili diplom proqramı (BMU-İNHA İDP) üzrə Rəhbər Komitə üzvlərinin növbəti iclası keçirilib.

# XƏBƏR İCMALI

05 may - 05 iyun

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
DÖVLƏT PROQRAMI İDARƏETMƏ QRUPU

## Dövlət Proqramı iştirakçısı Helsinkidə baş tutan beynəlxalq konfransda iştirak edib




Dövlət Proqramı iştirakçısı Turanə Abdullayeva "17-ci NNDR KONFRANSI: YERLİ VƏ QLOBAL KONTEKSTDƏ ƏLİLLİK" ("17TH NNDR CONFERENCE: DISABILITY IN LOCAL AND GLOBAL CONTEXTS") konfransında iştirak edib.

Konfrans çərçivəsində araşdırma ilə çıxış edən Porqram iştirakçısı daha sonra auditoriyanın suallarını cavablandıraraq faydalı rəylər alıb.

## BMU-İNHA İDP tələbələri "AIRO 2025" də I yeri qazanıblar






Bakı Mühəndislik Universiteti ilə Koreyanın İNHA Universiteti arasında icra olunan ikili diplom proqramının (BMU-İNHA İDP) tələbələri AzeRobot Educationun təşkilatçılığı ilə ADA Universitetində keçirilən "AIRO 2025" (Azərbaycan Beynəlxalq Robot Olimpiadası) robot yarışmasında I yerin qalibi olublar.

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
DÖVLƏT PROQRAMI İDARƏETMƏ QRUPU

# XƏBƏR İCMALI

05 may - 05 iyun

## BMU-nun rektoru Cənubi Koreyada təhsil alan BMU-İNHA İDP tələbələri ilə görüşüb






Bakı Mühəndislik Universiteti (BMU) və İNHA Universiteti arasında icra olunan ikili diplom proqramı (İDP) çərçivəsində təhsillərinin sonuncu kursunu Koreya Respublikasında davam etdirən tələbələrlə görüş keçirilib.

## Dövlət Proqramı iştirakçısı "London Polymer Group 2025" simpoziumunda iştirak edib

Porqram iştirakçısı Xədicə Axundova tədqiqat posteri ilə SEMS-nin (School of Engineering and Materials Science) daxilində keçirilən tədbirdə bütün tələbələr arasında "ən yaxşı poster" nominasiyasına layiq görülüb. Bu uğuru münasibətilə Xədicə Axundova məktəbin rəhbəri Prof. Hazel Screen tərəfindən tərifə layiq görülüb.



## BDU və HUJI ikili diplom proqramının tələbəsi nüfuzlu Mançester Universitetinin doktorantura proqramına qəbul alıb

Bakı Dövlət Universiteti (BDU) və İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında birgə icra edilən ikili diplom proqramının magistratura pilləsinin tələbəsi, Edqar Şahbazov elmi fəaliyyətində mühüm nailiyyətə imza atıb. O, Böyük Britaniyanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan Mançester Universitetinin Tibb və Sağlamlıq Elmləri Fakültəsində Molekulyar Biologiya ixtisası üzrə doktorantura proqramına qəbul olunub.



## İkili diplom proqramının uğurlu məzunları ilə görüşlər davam edir



Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) ilə Türkiyənin Ege Universitetin arasında həyata keçirilən beynəlxalq ikili diplom proqramının "Bitki mühafizəsi" ixtisası üzrə ilk məzunlarından olan Fəridə Bayramova ilə həmin ixtisasın tələbələri arasında görüş təşkil edilib.